# Şəhid ailələri və qazilərin sosial müdafiəsi diqqət mərkəzindədir



***Bu kompleks də nəzərə alınmaqla, 10 min şəhid ailəsi və müharibə əlili dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub və bu proses davam edir. Keçən il, 2020-ci ildə biz bu istiqamətdə ən böyük göstəriciyə nail olduq – 1572 şəhid ailəsi və Qarabağ qazisi evlərlə, mənzillərlə təmin olunmuşdur. Elə keçən il mən demişdim ki, 2021-ci ildə biz öz vətəndaşlarımızı daha böyük sayda evlərlə, mənzillərlə təmin etməliyik və bu gün bunun nəticələrini görürük. Bu il 3 minədək şəhid ailəsi, müharibə əlili evlərlə, mənzillərlə təmin ediləcək və artıq bu yaşayış kompleksini də nəzərə almaq şərti ilə artıq bu kateqoriyadan olan 1300-dən çox ailə mənzillərlə təmin olunub.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Vətən müharibəsində böyük Qələbənin qazanılmasında canlarını qurban verən şəhidlərimizin ailələrinin, həmçinin qazilərin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ötən dövrdə uğurlu tədbirlər həyata keçirilib. İyulun 14-də Azərbaycan Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib. 15 ədəd 9 mərtəbəli, 54 mənzilli evlərin sənədləri sahiblərinə təqdim edilib. Dövlətimizin başçısı şəhid ailələri və müharibə əlilləri ilə görüşüb, onlarla söhbət edib. Bundan öncə isə Bakının Sabunçu rayonu, Ramana qəsəbəsində daha bir qrup şəhid ailəsi və müharibə əlilinə mənzillər təqdim olunub. Mənzil təqdim edilənlər arasında Vətən müharibəsi şəhidlərinin ailələri və Vətən müharibəsi əlilləri də var. Şəhid ailələrinin üzvləri və müharibə əlilləri daim qayğı ilə əhatə olunduqlarına, onlara göstərilən sosial dəstəyə, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.***

Qeyd edək ki, ailələrə təqdim edilən mənzillər tam təmirlidir. Dövlət başçısının 25 yanvar 2021- ci il tarixli sərəncamı ilə 2021–2025-ci illərdə şəhid ailələri və müharibə əlillərinə 11 min, o cümlədən bu il 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. 2021-ci ilin planı üzrə artıq 850 mənzil verilib. Ümumilikdə ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 10 mindən çox mənzil və fərdi ev, həmçinin müharibə əlillərinə 7200-dən çox avtomobil təqdim edilib.



Şəhidlərin ailə üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin problemləri dövlət başçısının nəzarətdə saxladığı məsələlərdəndir. Bu kateqoriyadan olan insanların məşğulluğunun təminatı məqsədilə start verilən "Məşğulluq marafonu"na müraciət üçün qeydiyyat forması hazırlanıb. Marafona qoşulmaq istəyən işəgötürənlər bu məqsədlə vakansiyalarını dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla göndərə bilər. Marafona qoşulan işəgötürənlərin sayı artıq 215-ə çatıb. Həmin işəgötürənlərin 122-si xidmət, 67-si emal, 17-si kənd təsərrüfatı, qalanları tikinti sahələri üzrədir. Marafona qoşulan işəgötürənlər tərəfindən e-sistemə daxil edilən vakansiyaların sayı isə 1000-ə çatıb.Təqdim edilən vakansiyalar üzrə şəhid ailələrinin üzvlərinə, müharibədə yaralanmış qazilərimizə iş yerləri ilə təmin olunmaları üçün göndəriş verilir və marafonun dəstəyi ilə artıq 100-dək şəhid ailəsi üzvü və qazi işlə təmin edilib. Marafondan faydalanaraq işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilər həmin linkə daxil olaraq özləri haqqında məlumatları qeyd etməklə müraciətlərini edə bilərlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasından iki il ötür. Qurum Prezident İlham Əliyevin 4 iyul 2019-cu il tarixli fərmanı əsasında ƏƏSMN - nin tabeliyində publik hüquqi şəxs olaraq yaradılıb. Observatoriya əmək, məşğulluq, sosial müdafiə sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində fəaliyyət göstərir. Ümumilikdə Milli Observatoriyanın fəaliyyəti əsasən monitorinq (müayinə, sorğu), analitik və intellektual mərkəz ("beyin mərkəzi"), proqnoz, tədqiqat və təkliflərin diskussiyası və dialoq platforması, bir də tədris və təlim mərkəzi adlanan platformalarda təşkil olunub.

Fəaliyyətinin iki illiyi ilə bağlı keçirilən toplantıda qurumun İdarə Heyətinin sədri Elşən Əsədov əmək bazarının cari və perspektiv vəziyyətinin qiymətləndirilməsinin, strateji məşğulluq sahələrinin, onların gələcək inkişaf meyillərinin müəyyən edilməsinin observatoriyanın əsas vəzifələri sırasında olduğunu deyib. Bildirib ki, Milli Observatoriyanın fəaliyyət istiqamətinə, eləcə də iqtisadi fəal əhalinin, məşğulluğun və işsizliyin kəmiyyət tərkibinin, keyfiyyət göstəricilərinin müasir vəziyyətini, onların dəyişilməsinə təsir göstərən sosial-iqtisadi şəraitin təhlil edilməsi, bu əsasda cari və perspektiv proqnozların hazırlanması daxildir. Observatoriya həmçinin iqtisadiyyatın rəqabətədavamlı kadrlarla təmin edilməsi üçün peşə və ixtisaslara, zəruri bacarıqlara və səriştələrə dair tələbləri müəyyənləşdirə bilər.

Qurum hazırda üç layihə üzərində işləyir. Əlilliyi olan şəxslərlə bağlı Virtual İnnovasiyalar Parkı adlanan layihə əsasında bu kateqoriyadan olan şəxslərin bərabər imkanlar çərçivəsində məşğulluğu təmin olunacaq, əmək bazarına və sahibkarlıq fəaliyyətinə cəlb edilməsi həyata keçiriləcək. Eşitmə və nitq məhdudiyyəti olan şəxslərin ünsiyyət probleminin aradan qaldırılmasına yardım edəcək proqram təminatı layihəsi və işarə dilinin rahat öyrənilməsi üçün Milli Observatoriya tərəfindən hazırlanan "Telegram bot" internet resursu fəaliyyətdə olacaq. Bu layihənin tətbiq olunması həmin şəxslərin ətrafdakı insanlarla ünsiyyətini asanlaşdıracaq, onların cəmiyyətə inteqrasiyasına yardım edəcək. Müayinə Sorğu Sistemi layihəsi çərçivəsində müəyyən mövzular üzrə sorğuların aparılması, toplanmış məlumatların mobil tətbiq və ya veb səhifə üzərindən sistemə göndərilməsi, əldə edilmiş məlumatların təhlil edilməsi və hesabatların hazırlanması planlaşdırılır.

Qeyd edək ki, işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmasına nəzarət tədbirləri nəticəsində son 2 ildə işçilərin qeyd olunan hallardan icbari sığortası üzrə işəgötürənlərlə bağlanan müqavilələrin sayında, həmçinin həmin icbari sığorta üzrə yığımlarda 53 faiz artım qeydə alınıb. Bu da həm işçilərin, həm də işəgötürənlərin qanuni mənafelərinin daha dolğun təminatına xidmət edir. Çünki icbari sığorta müqaviləsi istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətini itirdiyi hallarda işçilərin və ya yaxınlarının sığorta ödənişi ilə təminatına imkan verir. Digər tərəfdən, belə hallarda işəgötürənin işçiyə ödəniş, kompensasiya verilməsi ilə bağlı xərclərdən azad olmasına əsas yaradır.

İcbari sığorta müqaviləsi olmayan işçilər Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) tərəfindən "Əmək müqaviləsi bildirişləri" altsistemi üzərindən aparılan təhlillər, habelə İcbari Sığorta Bürosunun təqdim etdiyi siyahılar əsasında, DƏMX-ə daxil olmuş müraciətlərə baxılması, eləcə də istehsalatda baş vermiş bədbəxt hadisələrin araşdırılması nəticəsində aşkar edilir. İşçilərlə icbari sığorta müqaviləsi bağlamayan işəgötürənlər müəyyən edildikdə onlara e-sistem üzərindən xəbərdarlıq təqdim edilir və həmin müqavilələrin bağlanması üçün tədbirlər görülür. İcbari sığorta müqaviləsinin bağlanmamasına görə İnzibati Xətalar Məcəlləsində inzibati tənbeh nəzərdə tutulub.

Dövlət Məşğulluq Agentliyi (DMA) tərəfindən də şəhid ailəsi üzvləri və qazilər diqqətdə saxlanılır. Bu kateqoriyadan olan daha 1524 şəxsə DMA tərəfindən özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim edilib. Onlardan 320 nəfəri şəhid ailəsi üzvü, 300 nəfəri isə Vətən müharibəsi qazisidir. Proqrama cəlb olunan şəxslərin ilk olaraq özünüməşğulluqlarının təşkili üçün şəraitlərinin qiymətləndirilməsi həyata keçirilib və təlimlərə cəlb ediliblər. Təlimi uğurla başa vuran şəxslər kənd təsərrüfatı və istehsal-xidmət sahələri üzrə kiçik təsərrüfatlarını qurmaq üçün qısa müddətdə lazımi avadanlıqlarla təmin olunublar. Hazırda proqram iştirakçılarına seçdikləri iqtisadi fəaliyyət növləri üzrə biznes-planlarına uyğun aktivlərin verilməsi prosesi davam edir.

Ötən dövrdə qazilərimizin reabilitasiya məsələləri də diqqətdən kənarda qalmayıb. Bu ilin 6 ayında ƏƏSMN tərəfindən 6237 əlilliyi olan şəxsə reabilitasiya xidmətləri göstərilib. Onlardan 957-si müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdir. Qeyd olunan dövrdə agentlik tərəfindən əlilliyi olan şəxslərə 477-si mühərrikli təkərli oturacaq olmaqla 669 təkərli oturacaq, 703 aşağı və yuxarı ətraf, habelə süd vəzi protezi, 599 aşağı və yuxarı ətraf ortezi, 6947 müxtəlif reabilitasiya vasitəsi, 75 bel və boyun nahiyəsi üçün korset, 1263 cüt protez ayaqqabı, 1643 cüt ortopedik ayaqqabı, 479 dördayaqlı dayaq vasitəsi verilib. Əlilliyi olan şəxslər həmçinin 1305 qoltuqaltı və dirsəkaltı ağac, 1253 ədəd əsa və s. reabilitasiya vasitələri ilə təmin ediliblər. Həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 84 yüksək texnologiyalı protez verilib.

Ümumilikdə, son 6 ayda əlilliyi olan şəxslərə 22 min 272 reabilitasiya vasitəsi təqdim edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 2 dəfə çoxdur. Nazirliyin reabilitasiya müəssisələrində əlilliyi olan 1540 şəxsə stasionar, 143 şəxsə ambulator formada reabilitasiya xidmətləri göstərilib. Postmüharibə dövründə ƏƏSMN tərəfindən nazirliyin reabilitasiya müəssisələrində 1300- dək qazi və şəhid ailəsi üzvü sosial – psixoloji və reabilitasiya xidmətləri ilə əhatə olunub. Onlar klinik və sosial psixoloqlar tərəfindən əyani və onlayn, qrup və fərdi şəkildə psixoloji seanslara cəlb ediliblər. İndiyədək 2 min 951 ailəyə psixoloji dəstək göstərilib. Hazırda da həmin xidmətlərin göstərilməsi prosesi davam edir.

Onu da deyək ki, Serbiyanın Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər naziri xanım Darija Kisiç Tepavçeviçin başçılıq etdiyi nümayəndə heyəti ƏƏSMN- nin 1 saylı Uşaq Reabilitasiya müəssisəsində və Şağan Reabilitasiya Pansionatında olub. Onlar hər iki müəssisədə yaradılan şəraitlə, əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara göstərilən reabilitasiya xidmətləri, tətbiq olunan müalicə prosedurları ilə tanış olub, göstərilən xidmətləri yüksək qiymətləndiriblər. Nümayəndə heyətinə bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019 – 2021-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Bu il isə daha 3 müəssisənin – Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub.

Dövlət başçısının iştirakı ilə bu il fevralın 25- də açılışı olan Şağan Reabilitasiya Pansionatında müasir tələblərə uyğun şərait yaradılıb. 128 palatadan ibarət olan, 250 çarpayılıq pansionat ildə 5 minə yaxın əlilliyi olan şəxsə effektiv təsirə malik fizioterapevtik müalicə prosedurları tətbiq edilməklə reabilitasiya xidmətləri göstərməyə imkan verir. 1 saylı Uşaq Reabilitasiya müəssisəsi də ən müasir tələblərə uyğun qurulub. Burada sağlamlıq imkanları məhdud uşaqların diaqnostikası, onların reabilitasiya potensialının müəyyənləşdirilməsi, sosial, tədris – peşə reabilitasiyası istiqamətində işlər aparılır.

Bütün bunlar onu göstərir ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da COVID – 19 pandemiyasının iqtisadiyyata vurduğu zərər və digər bəlalara baxmayaraq, ölkəmizdə postmüharibə dövründə də həssas qruplara qayğı diqqət mərkəzində saxlanılır.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***